# Kütləvi bayramların keçirilməsi

## Onların yüksək səviyyədə təşkili üçün nə etmək lazımdır?!

**Azərbaycan müstəqillik qazandıqdan sonra doğma vətənimizdə əvvəlki bayramlarla yanaşı milli bayramlarımızın da kəmiyyət və keyfiyyət göstəriciləri artmışdır. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu bu bayramların - Qurtuluş günü, Müstəqillik günü, Konstitusiya günü, Dirçəliş günü kimi, ordumuzun yaranışı günü, Sərhədçilər günü, Ramazan, Novruz, Qurban bayramları və başqa milli bayramların keçirilməsi bu qəbildəndir.**

Fərəhlə qeyd etməliyik ki, bu və ya digər bayram və mərasimlərin keçirilməsi hər bir azərbaycanlının qürur hissinin, vətənpərvərlik duyğusunun, onların etik və estetik zövqünün formalaşmasına xidmət edir.

Əslində, bu cür vətənpərvərlik hissi aşılayan tədbirlərin keçirilməsi klub müəssisələrinin əsas vəzifə borcudur. Hər bir klub işçisi unutmamalıdır ki, rəhbərlik etdiyi bu müəssisələrdə bayram tədbirlərinin təsirli və yaddaqalan şəkildə keçirilməsi onun yüksək səviyyədə, peşəkarlıqla təşkil edilməsindən asılıdır. Ona görə də klub işçiləri rayon mədəniyyət evinin baş metodisti ilə birlikdə onun təkmilləşdirilməsinə, müasir dövrlə uzlaşmasına, milli xarakterinə xüsusi diqqət yetirməlidirlər. Bunun üçün həm də müasirlik, millilik ab-havası yaradılmalıdır.

Klub işçisi bilməlidir ki, təşkil olunmuş tədbirin kütləviliyi onun xarakteri və mövzusu ilə sıx bağlıdır. Belə ki, Konstitusiya və yaxud Müstəqillik kimi ümumxalq bayramları ilə istehsalat kollektivinin hər hansı fərdi (ad günü, peşə günü və s.) günü arasında fərq qoymaq lazımdır.

Bunun üçün klub işçisi rayonun həyat səviyyəsi, onun ərazisindəki təhsil və səhiyyə müəssisələrinin mövcudluğu ilə yaxından tanış olmalı, onların gücündən maksimum dərəcədə istifadə etmək üçün əlaqədar təşkilatlarla danışıq aparıb, razılıq əldə etdikdən sonra tədbirin təşkilində onların gücündən istifadə etməlidir. Bu məsələ ilə bağlı bayram sərgisi təşkil olunmalıdır. Klub işçisi ediləcək bayram məruzəsini tədbirin mövzusu ilə uzlaşdırmalıdır. Elə etmək lazımdır ki, oxunacaq məruzə, çıxışlar keçirilən tədbirin daha geniş şəkildə açılmasına xidmət etsin.

Burada fəallıq başlıca şərtdir. Klub işçisi yalnız tədbir hazırlayan insanların deyil, tədbirə gələnlərin də fəallığına nail olmalıdır. Klubda bayramın keçirilməsində əyani və texniki vəsaitlərin yerli-yerində istifadə olunmasına da diqqət yetirilməlidir. Əyani vəsaitlər tədbirin mövzu açılışına xidmət etməli, bayramın, tədbirin qaranlıq qalmasına imkan verməməlidir.

Tədbirin təmtəraqlı, məzmunlu keçməsi üçün qərargahın yaradılması və həmin qərargaha kimlərin daxil edilməsi də əsas şərtlərdən biridir.

Təşkilat qrupunun hər bir üzvü tapşırılan sahəyə məsuliyyətlə yanaşmalıdır.

Klub fəalları tədbirə çağırılmış bədii özfəaliyyət kollektivi üzvlərinin ifa edəcəkləri repertuarın tədbirin mövzusu ilə uzlaşmasına da diqqət yetirməlidirlər. Keçirilən tədbirin gücü və təşkili üçün bu işə məsul olan klub işçisi şöbə vasitəsi ilə rayon icra hakimiyyətinin əlaqədar əməkdaşı ilə əlaqə saxlamalı, onu ssenari və rejissor ideyası ilə tanış etməlidir.

Unutmaq olmaz ki, hər bir mərasim və bayram mədəni-maarif işinin mürəkkəb, çoxfunksiyalı formasını yaratmaqla dərin şəxsi və ictimai məna kəsb edir. O, adamları cəmiyyətin mənəvi zənginlikləri ilə birləşdirir, nəsillərin tarixi təcrübəsini onlara öyrədir, mənəvi və estetik təsir göstərir, eyni zamanda adamların istirahətini təşkil edir.

Kütləvi bayramların və mərasimlərin təşkilində klub işçilərinə yalnız bədii özfəaliyyət kollektivləri deyil, eyni zamanda mədəniyyət və turizm şöbəsinin qeyri sahələri - musiqi məktəbi, kitabxana, muzey, turizm və kino işçiləri də yaxından kömək göstərməlidirlər.

**Zabit CAVADOV**